# Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi ilə Rusiya Müəllif Cəmiyyəti arasında müəlliflərin əmlak hüquqlarının kollektiv əsasında idarə olunması və qarşılıqlı yardım göstərilməsi sahəsində Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi ilə Rusiya Müəllif Cəmiyyəti arasında müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə olunması və qarşılıqlı yardım göstərilməsi sahəsində Sazişi imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri Kamran Sultan oğlu İmanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri Kamran Sultan oğlu İmanova verilməsi barədə Rusiya tərəfinə müvafiq bildiriş göndərsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV.***

***Bakı şəhəri, 24 mart 2001-ci il.***

***№ 661.***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 mart 2001-ci il, № 3, maddə 191)***